# Masallıda Xocalı faciəsi anılıb




**Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Xocalı -qan yaddaşımız" adlı tədbir keçirilib. Rayon icra hakimiyyəti, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lənkəran-Astara regional nümayəndəliyi və Ombudsman Cənub Regional Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə təşkilatçı müəssisələrin nümayəndələri, Xocalı və Şuşa sakinləri, şəhid ailələri, media və mədəniyyət işçiləri, gənclər iştirak ediblər.**

Soyqırımı qurbanları və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad olunduqdan sonra muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Əntiqə Tağıyeva tədbiri açıq elan edib. Çıxış edənlər tarixin müxtəlif dövrlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqının XX əsrin sonlarında Xocalıda üzləşdiyi dəhşətlərdən, başına gətirilən vəhşiliklərdən danışıblar. Bildiriblər ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz Xocalının, torpaqlarımız uğrunda şəhid olanların qisasını alaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etmişdir.

Sonda Xocalı soyqırımına aid sərgiyə baxış keçirilib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 25 fevral, № 43.- S.7.